# "İdeala doğru: düşüncədən yazıya"

## *"Tənqidçinin Azərbaycançılıq idealı" kitabına akademik Nizami Cəfərovun "ön söz"ü haqqında düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Ədəbi mühiti ardıcıl olaraq izləmək və təəssüratlarını da elə ardıcıl olaraq qələmə almaq ədəbiyyat yolunda, söz yolunda xüsusi bir fədakarlıqdır. Sözə önəm vermək, sözün cəmiyyətə təsirini başa düşmək və bunu qiymətləndirmək yazı sahibindən həm də hazırlıq tələb edir. Son vaxtlar Əli Rza Xələflinin elə bizim mətbəədə işıq üzü görən kitabları göstərir ki, o, fədakar ədəbiyyatşünaslıq, tənqidçilik fəaliyyəti ilə yanaşı həm də yorulmayan bir publisistdir. Ədəbiyyatımızın ən nüfuzlu araşdırıcıları, tədqiqatçıları kimi tanınan alimlərin yaradıcılığını izləmək kimsəyə asan gəlməsin. Bunun üçün gərək prosesdən kənarda qalmayasan. Mən dostumun "Tənqidçinin azərbaycançılıq idealı" kitabı ilə bağlı düşüncələrimi oxucularımla bölüşmək istərdim. Bunun üçün kitabla yaxından tanış olmaq lazımdır. Mən də həmin kitabı nəşrə hazırlayarkən həm kitabla yaxından tanış oldum, həm də kitabda haqqında danışılan müəllifin özünü də yaxından tanıdım. Bu, ədəbiyyatımızın görkəmli simalarından biri - filologiya elmləri doktoru, professor, əməkdar müəllim Təyyar Salamoğludur. Onu da deyim ki, Təyyar Salamoğlu müasir Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında yaxından iştirak edir. Ədəbi prosesi ardıcıl olaraq izləyir. Dəyərli elmi məqalələrlə ədəbi orqanlarda müntəzəm çıxış edir. Onun yazıları ilə "Azərbaycan" jurnalından, "Ədəbiyyat" qəzetindən və eləcə də "Kredo"nun səhifələrindən tanış olmaq olar. Onu da deyim ki, mən də Təyyar Salamoğlunun ədəbi yaradıcılığını ən çox elə "Kredo" qəzetindən izləmişəm. Bir sözlə, görkəmli alimin İsmayıl Şıxlı, Fərman Kərimzadə və Mirzə Ələkbər Sabir yaradıcılığı ilə bağlı tədqiqatları dövrümüzün ədəbi hadisələri kimi qiymətləndirilib. Ə.Xələfli də Təyyar Salamoğlunun ədəbi portretini məhz bu əsərlər əsasında yazıya gətirməyə çalışıb. Və nəticədə "Tənqidçinin azərbaycançılıq idealı" kimi dəyərli tədqiqat əsəri ədəbi-elmi ictimaiyyətin ixtiyarına verilib. Akademik Nizami Cəfərov bu əsəri "Təyyar Salamoğlu probleminin həlli" adlandırır.

Kitabın əhatə dairəsi, mövzusu görkəmli sənətkarların yaradıcılığına Təyyar Salamoğlunun münasibəti ilə bağlıdır. Kitaba elə ilk gündən həssaslıqla yanaşdıq. Oxucuları təmin edə biləcək bir annotasiya hazırladıq. Zənnimcə, annotasiyanın mətnini oxuculara çatdırmaqla üzərində düşündüyüm mövzunun haqqında aydın təsəvvür yaradardıq: "*Şair, publisist, ədəbiyyatşünas, tənqidçi Əli Rza Xələflinin «Tənqidçinin azərbaycançılıq idealı» monoqrafiyası görkəmli ədəbiyyatşünas-tənqidçi Təyyar Salamoğlunun həyat və yaradıcılığı əsasında yazılmışdır. Müəllif görkəmli alimin simasında çağdaş ədəbi tənqidimizin azərbaycanşünaslığa elm, azərbaycançılığa ideologiya baxımından münasibətinin araşdırılmasına - tədqiqinə, eyni zamanda tənqidçinin portret cizgilərinə də geniş yer ayırmışdır. Tədqiqatda şəxsiyyət və adət-ənənə, milli ruh, milli xarakter, milli varlıq məsələləri, eləcə də patriarxal mühitin gücü və ziddiyyətləri, ən başlıcası, zəngin tarixi keçmişi olan estetik düşüncənin milli bütövlük uğrunda mübarizəsi ədəbi faktlar, ədəbi-tənqidi materiallar əsasında araşdırılıb. Oxucu əsər boyu tənqidçinin ədəbi taleyi və mübarizəsi fonunda M.Ə.Sabirin, İsmayıl Şıxlının, Fərman Kərimzadənin... düşüncə qatlarına da nüfuz edə bilmək imkanı qazanır. Kitabda müəllifin «Azadlıq küçəsində yanğın» povest-xronikası da oxuculara ilk dəfə bütöv şəkildə təqdim olunur. Qeyd edək ki, bu əsər də məntiqi ilə ümumi mövzuya bağlıdır. Əli Rza Xələflinin «Tənqidçinin azərbaycançılıq idealı» əsəri humanitar elmlərin tədqiqatçıları, müəllimlər və tələbələr, eləcə də psixoloqlar, fəlsəfi tədqiqatlara meyl edənlər, sosioloqlar, politoloqlar, hüquqşünaslar, insan haqlarının müdafiəçiləri - vəkillər və s. zümrələr üçün mənəvi istinadgah, zəngin düşüncə qaynağı ola bilər. Kitabın sözün estetik çalarından, sözdə gözəlliyin təzahüründən zövq almaq gücündə olan kütləvi oxucu üçün də çox maraqlı olacağına inanırıq*". Göründüyü kimi, annotasiyada əks olunan qeydlər kitabın strukturunu da qavramağa imkan verir. Çünki bu qeydlər əsasında oxucuya məlum olur ki, kitab təkcə Təyyar Salamoğlunun tədqiqatlarının araşdırılmasından ibarət deyil. Bu kitabda görkəmli alimin mükəmməl portreti də oxuculara təqdim olunur. Hətta vaxtı ilə qəzetdə dərc olunarkən çox dəyərli ədəbi hadisə kimi qiymətləndirilən "Azadlıq küçəsində yanğın" povestinə də yer verilib. Çünki bu povestdə də Təyyar Salamoğlunun həyatı ilə bağlı sarsıdıcı hadisənin əks olunması diqqətdən kənarda deyil. Kitabda bir neçə bölmə var. "Tənqidçinin portreti" xarakterik cizgilərlə təqdim olunur. Sonra "Ədəbi trilogiya" gəlir.

Trilogiyanın birinci hissəsi "Sözün sarsılmaz qalası - zamanla döyüş" adlanır. Bu hissədə İsmayıl Şıxlı yaradıcılığının sirləri azərbaycançılıq müstəvisində təqdim olunur. Əlbəttə, T.Salamoğlunun motivləri əsasında. İkinci hissə "Tənqidçinin azərbaycançılıq həqiqətləri" adlanır. Bu hissədə yazıçının "Qarlı aşırımdan keçən yollar" əsəri tədqiqata cəlb edilir. Üçüncü hissə "Millətə sevdalı Sabir" adlanır. Bu hissədə "Sabirin milli intibah idealı" kitabı təhlili edilir.

Və, nəhayət, "Azadlıq küçəsində yanğın" povest-xronikası gəlir. Onu da deyim ki, bu kitabın elmi redaktoru akademik Nizami Cəfərovdur. Və kitaba da çox dəyərli bir "Ön söz" yazıb. Rəyçi isə həm də "Son söz"ün müəllifidir. O, filologiya elmləri doktoru, yazıçı-publisist Elçin Mehrəliyevdir.

Beləliklə, kitab həm Xələfli yaradıcılığını bilən, həm də Təyyar Salamoğlu yaradıcılığına yaxından bələd olan görkəmli alimlərin diqqətindən keçib. Onların kitabda xüsusi dəyərləndirmə ilə yazılmış məqalələrini oxuyanda hiss edirsən ki, "Tənqidçinin azərbaycançılıq idealı" əsərini dilinə, üslubuna, eyni zamanda elmi siqlətinə görə məmnunluqla təqdir edirlər. Bu kitab mənə ona görə çox yaxın və doğmadır ki, əsər mətbəəyə göndərilməzdən əvvəl onu mən də diqqətlə oxumuşam. Əsas da ona görə ki, bu kitabın redaktə məsuliyyəti mənim üzərimə düşürdü.



Əslində mən münasibətimi elə annotasiyada kifayət qədər aydınlığı ilə bildirmişdim. Ancaq indi müəyyən vaxt keçəndən sonra kitabı təsadüfən kitabxanamda gördüm və yenidən vərəqlədim. Gördüm ki, Nizami Cəfərovun qeydləri sözün həqiqi mənasında araşdırıcının zəhmətinə qədirşünaslıqla qiymət verməyin nümunəsidir. Akademik "ön söz"ündə Xələfli yaradıcılığına ümumi nəzər salır. Xüsusilə, poeziyasının təsir dairəsini göstərməyə çalışır. Ən başlıcası, Xələfli yaradıcılığına bələdliklə səmimi münasibətini bildirir: "*Onun müdrik, aforizmlərlə zəngin poeziyası mütəfəkkir sənətkarın fikir-düşüncə aləminin bəhrəsi, göstəricisidir. Sənətkar (xüsusilə, şair) tarixi-ədəbi ənənələrdən nə qədər qaynaqlanırsa, bir o qədər də bu ənənələrin davam (və inkişaf) etdirilməsinə xidmət etməlidir. Bizim mütəfəkkir şairimiz (ümumən böyük ədəbiyyat adamımız) Əli Rza Xələfli də bu amala sadiqdir. Hətta deyərdim ki, təkcə sadiq deyil, həm də bu yolun fədaisidir. Əvvəllər də demişəm; böyük ədəbiyyat həmişə ona qədərki və ondan sonrakı ədəbiyyatın içərisində yetişir - ona qədərki və ondan sonrakı ədəbiyyat böyük ədəbiyyat üçün kontekst olub onu şərh etmirsə, onun milli-ictimai təfəkkür tərəfindən mənimsənilməsinə xidmət etmirsə, bütünlüklə mənasızdır. Ə.R.Xələflinin poeziyası inadla, fərdi yaradıcılıq üslubunun məntiqi inkişafı ilə mənəvi həyatımızın tarixi köklərinə nüfuz edə bilir, özünəməxsus ümumiləşdirmələr aparır. Onun son illərdə qələmə aldığı «Damcılı» və «Göyəzəndən bəri gəl» (Barat Vüsala məktub) poemaları çağdaş zamanımızın poetik salnaməsidir. Mənim qəti inamıma görə keçmişi və gələcəyi də özündə ehtiva edən bu əsərlər milli yaddaşda kök salacaq. Həm ənənənin, həm də milli-əxlaqi dəyərlərin yaşarılığının təmin olunmasına özünün əvəzsiz xidmətlərini göstərəcəkdir. Bu tipli əsərlərin Vidadi, Vaqif, Q.Zakir və digərlərində də olduğunu (və bu gün necə böyük əhəmiyyət kəsb etdiyini) nəzərə alsaq, deməliyik ki, belə əsərlər zaman keçdikcə daha çox oxunur və dəyərləndirilir. Çünki bu əsərlərdə zamana, tarixi şəraitə, ədəbi mühitə, insanların həyat tərzinə real müəllif münasibəti var*". Akademik Nizami Cəfərov "Tənqidçinin azərbaycançılıq idealı" kitabını dilindən, üslubundan da bəhs edərkən yenə müəllifin poetik imkanlarına diqqəti cəlb edir. O, müəllifin publisistik yaradıcılığında poetik ruhun gücünə də toxunaraq yazır: "*Mən Ə.R.Xələflinin çıxışlarını da çox dinləmişəm. Tədbirlərdə dəfələrlə ona söz vermişəm və məmnuniyyətlə ona diqqət kəsilənləri, çıxışlarının alqışlarla qarşılanmasını da görmüşəm. İnanmışam ki, danışdıqları da özünün odlu-alovlu ruhundan süzülüb gəlir.*

*Professor Q.Kazımov «Əli Rza publisistikasında da şairdir» deyəndə çox haqlıdır. Mərhum akademik Tofiq Hacıyev «onun publisistikası da poeziyadır» söyləyəndə həssas müşahidəyə əsaslanırdı. Onun yaradıcılığında təfəkkür genişliyi fikirlərinin daha əhatəli ifadəsinə xidmət edir. Hər hansı mövzuda qələmini işlədirsə, sanki sözü qurtarmır. Bu, mətləbi lüzumsuz yerə uzatmaq deyil, daha çox məsələni geniş fikir arealında qavraması ilə bağlıdır. Əslində, onun yaradıcılığını şərtləndirən bu keyfiyyət obrazlarının geniş coğrafiyası və dərin tarixilik təminatıdır. Bu da ona janrlar və mövzular arası çevik manevrlər etmək imkanı yaradır. Az olmayıb ki, biz eyni qəzetin üzündə onun həm hərarətli nəsr lövhələrini, həm də incə ruhlu şeirlərini, hissiyyatla çağırılmış cazibəli bayatılarını oxumuşuq*". Zənnimcə, "Tənqidçinin azərbaycançılıq idealı" kitabının bir üslub baxımından cazibədarlığı müəllifin xalq yaradıcılığına çox bağlı olmasından irəli gəlir.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Bir sözlə, müəllifin imkanlarını şərtləndirən əsas amil onun müraciət etdiyi mövzunu dərindən bilməsi və yaxud hansısa bir alimin yaradıcılığını tədqiq edərkən tədqiqata cəlb etdiyi şəxsin yaradıcılıq qaynaqlarına da dərindən bələdliyi ilə bağlıdır. Mənə elə gəlir ki, Nizami Cəfərovun da qeyd etdiyi kimi müəllif Təyyar Salamoğlunun təkcə elmi yaradıcılığını yox, həm də ruhunu tədqiq edir. Elə bu aspektdə yanaşma ilə oxucusunu polemikaya çəkir. İnsafən, “Tənqidçinin azərbaycançılıq idealı” əsərinin ədəbi qəhrəmanı əsərin özündən də aydın görünür ki,- kifayət qədər intellektual ziyalıdır. Onun elmi yaradıcılığı xalqın mənəvi mühiti ilə çox bağlıdır.

Elə, zənnimcə, Təyyar Salamoğlunu İsmayıl Şıxlıya, Fərman Kərimzadəyə və Mirzə Ələkbər Sabirə doğru aparan yollar da məhz onun milli ruha sadiq olan mənəvi mühitindən keçir.

Akademik Nizami Cəfərov ədəbi mühitin təminatçıları olan ziyalıların yaradıcılıq yolunu yaxşı bilir. Ona görə də “Tənqidçinin azərbaycançılıq idealı” kitabına yazdığı “ön söz”də müəllifin istinadlarını yüksək səviyyədə dəyərləndirir. Biz Nizami Cəfərovun yazısı ilə ədəbi mühitə münasibətdə səmimi yönümün sözün həqiqi mənasında çox böyük miqyasını görürük. Nizami Cəfərov yazır: “*Kitab nə qədər bir tənqidçi-ədəbiyyatşünas alim haqqındadırsa, bir o qədər də ədəbiyyat ziyalısı, sözün fədakarı, alim xarakteri, yaradıcı təbiəti, eləcə də müasir ədəbi mühitimizin görünən və görünməyən tərəfləri haqqında əsərdir. Əli Rza üslubuna uyğun olaraq obrazın xarakterini bütün parlaqlığı ilə qabarıq vermək üçün Təyyar Salamoğlu haqqında müasirlərinin - onu yaxından tanıyan, yaradıcılığını bilən elm xadimlərinin fikirlərini seçmələr şəklində təqdim edir. Əsasən portret cizgilərini ifadə edən iki yazı əhatəsində verilən seçmələrin müəllifləri - Bəkir Nəbiyev, Qəzənfər Kazımov, Himalay Qasımov, Vaqif Yusifli, Əzizxan Tanrıverdidir. Müşahidələrində obyektiv münasibət, səmimi dəyərləndirmə və bunun səmimi ifadəsi istər-istəməz oxucunu razı salır. Mərhum akademik Bəkir Nəbiyev özünəxas səliqə-sahmanlı cümlələrlə, ancaq ürəklə* ***(həm də sevgi ilə)*** *yazır: «İstər tipoloji araşdırma, istərsə də hər hansı bir romanı ayrıca tədqiqat obyektinə çevirməli olduğu zaman T.Salamoğlunun araşdırmalarında bədii materialın ən xırda detallarına qədər mənimsənilməsi müşahidə olunur. Mövcud elmi mövqelərə həssas yanaşma ilə yüksək nəzəri hazırlıq bir araya gətirilir və yeni baxış sisteminin meydana çıxmasının şərtinə çevrilir.» Həqiqətən akademik öz böyüklüyündən irəli gələn həssaslıqla Təyyarın şəxsində ədəbiyyata «yeni baxış sisteminin» yarandığını duymuş və bunu yazmışdır. Yaxud digər müəlliflər də Təyyar Salamoğlunun şəxsi və yaradıcılıq keyfiyyətlərini müxtəlif tərəflərdən göstərmiş və təqdir etmişlər”.* Bu qeydlərdə öz dövrünə, zamanına səmimi, geniş mənəvi müstəvidə baxışın nümunəsini görürük.

Mən Nizami Cəfərovu çoxdan tanıyıram. Onun hələ gənclik illərindən necə intellektual olduğunu, zəngin mənəvi mühitə sahib olduğunu müşahidə etmişəm. Və uzun müşahidə yolunda onun Azərbaycanın çox hörmətli, nüfuzlu bir ziyalısı olduğuna da axıracan inanmışam. “Tənqidçinin azərbaycançılıq idealı” kitabına yazdığı “ön söz”də də Nizami Cəfərovun necə böyük ürək sahibi olduğunu, inandığı həqiqətin miqyasını insani bir səmimiyyətlə ifadə etməyə çalışdığını görməmək mümkün deyil. Nizami Cəfərovun “Tənqidçinin azərbaycançılıq idealı” kitabına yazdığı “ön söz” ədəbi tənqidin essevari düşüncələr müstəvisində özünüifadə imkanlarını göstərən ən dəyərli örnəklərdən biridir.

Mənə elə gəlir ki, “Tənqidçinin azərbaycançılıq idealı” kitabının bir çox məziyyətləri haqqında gələcəkdə daha geniş və əhatəli yazmaq olar. Mən düşüncələrimi yazıya gətirməyə inamlıyam. Nizami Cəfərov qeydlərinin sonunda yazır: “Sənət insanın inamını qorumaq gücündədirsə, demək, dəyəri var. Oxucu da əsərdə bu inamı axtarır” və bu cümlədən sonra belə bir qənaətini də bildirməkdən çəkinmir: “İnsan axtardığını tapmadığı əsəri yaddaşında saxlamır”. Nə qədər dəyərlidir, nə qədər gözəldir?!

Bu kitab, yəni, “Tənqidçinin azərbaycançılıq idealı” kitabı müəllifin 65 illik yubileyi ərəfəsində çapdan çıxdı. Mən həmin 65 illik yubiley tədbirində də iştirak edirdim. Kitabın ədəbi-elmi məziyyətləri haqqında Nizami Cəfərovun da, Elçin Mehrəliyevin də maraqlı çıxışlarını dinlədim. Hiss etdim ki, müəllifin ədəbi-tənqidi, bir çox hallarda essevari motivinə görə Azərbaycanın görkəmli alimlərini xüsusilə razı salıb.

Mən uzun illərin poliqrafiya təcrübəsindən belə qənaətə gəlmişəm ki, kitabın tərtibatı, ona müəyyən gözoxşayan forma verilməsi də oxucuda xüsusi təəssürat yarada bilir.

“Tənqidçinin azərbaycançılıq idealı” kitabını oxuyanlar əsərin quruluşuna, tərtibinə, epiqrafların seçilməsinə diqqət versələr görərlər ki, bu əsər üzərində təkcə müəllifin yaradıcılıq işi yox, həm də texniki göstəricilərin də dəqiqliyi oxucuya yüksək estetik zövq aşılayır.

Onu da deyim ki, əsərin ayrı-ayrı hissələrində müəllifin zəngin poetik duyğularını əks etdirən çox dəyərli esselər var. Məhz mənim təklifimlə həmin esselərdən bəzi parçaları kitabın üz qabığına da çıxarmalı olduq. Çünki xüsusi təsir gücünə malik esselər oxucunun mənəvi mühitinə təsir göstərir, onun yaddaşında uzun müddət qala bilir. Bununla da kitabın özünəmüvafiq obrazı formalaşır.

Mən yaxşı bilirəm ki, musiqi də, rəssamlıq da insanların mənəvi mühitlərinə təsirsiz ötüşmür. Ancaq təsvirlərin güclülüyü, dəqiqliyi rəssamın yaratdığı tablo kimi söz fonunda daha gözəl görünür. Yaxud, musiqi və onun ecazkarlığı eşitmə vasitəsiylə oxucuya təsir göstərir. Mənim təklifimlə müəllif kitabdan belə bir parçanı seçib üz qabığında vermək üçün hazırladı. İndi həmin parçanı diqqətlə oxuyuram. Sanki bir muğam dinləyirəm. İnanıram ki, oxucu da məhz bu hissləri yaşayır: “*...Son vaxtlar Təyyarın yaradıcılığını mükəmməl muğam ifaçılığı kimi görürəm. Mənim nəzərimdə “M.Ə.Sabirin*




*milli intibah idealı” mükəmməl “Çahargah”dır; “Bəstənigar”ı, “Hisar”ı, “Müxalif”i, “Mənsuriyyə”si ilə. Yaxud “İsmayıl Şıxlının bədii nəsri” monoqrafiyası əvvəlindən sonuncu sözünəcən “Rast”dır. Hələ “Qarlı aşırımdan keçən yollar”ı demirəm. Bu əsər başdan-başa dərin kədər çağlayan “Şüştər”dir. Dünyadan əli üzülməkdə olanı həyata qaytaran kədər... Ölməz sənət yanğısı ilə yazılmış ədəbi trilogiyada - bu əsərlərin hər birində sözlükdən çıxıb səsliyə çevrilən xarakterin tərənnümünü görürəm. Hər bir sözün özündə canlanan, gələcək yüzilliklərə doğru başını uca tutan müdriklərin millətin gələcəyinə zillənmiş nəzərlərini görürəm... ...Və bu, həm də elə Təyyar Salamoğlunun özüdür”.* Göründüyü kimi, mətni oxuduqca biz görkəmli alim Təyyar Salamoğlunun yaradıcılıq aləmini gözlərimiz önündə canlandırırıq. Və kitabın müəllifinin alimin yaradıcılığına münasibəti sanki musiqi dili ilə şərh olunur. Sözün həqiqi mənasında ədəbi düşüncələrlə necə musiqi yaratmaq olar? Təqdim olunan parça sanki həmin musiqinin özüdür və biz təkcə mətni oxumuruq, həm də musiqini dinləyirik.

Demək, mətn içərisində biz 3 obraz görürük. Əlbəttə, birinci növbədə yaradıcılığı təhlilə çəkilən alimi görürük. Yəni Təyyar Salamoğlunun mənəvi mühitini sözlə yaradılan musiqinin müşayiəti ilə qavrayırıq. İkinci obraz, əlbəttə, müəllifin kimliyidir. Mətn göstərir ki, müəllifin zəngin mənəvi mühiti var və yeri gələndə o, musiqi amilindən də ustalıqla yararlana bilir. Əgər söhbət həmin parçadna gedirsə, biz üçüncü obraz kimi elə Azərbaycan muğamını təsəvvür edirik. Zənnimcə təqdim olunan parça muğam haqqında da maraqlı həqiqətləri yaddaşımızda canlandıra bilir.

Kitabdan seçilmiş esselərdən daha birini isə kitabın arxa üzündə təqdim etdik. Adətən son vaxtlar müəlliflərin tərcümeyi-hal qeydləri verilən yerdə biz müəllifin çox maraqlı “İnsan” essesini təqdim etdik: “*.İnsan! Mən sənin üçün yazıram... İstəyirəm ki, sən dünyaya gələndə necə təmiz və duru idinsə, dünyadan gedəndə də eləcə sağlam və aydın olasan. Daşıdığın genlərin, aldığın tərbiyənin, yaşadığın mühitin fəsadlarından xilas olmaq istəsən, inan ki, yollar var və səni həmin yola aparan bələdçi var. Bu, sözdür. Səni daha ucalara qalxmağa imkan verməyən yükdən azad ol. Sözə inam gətirsən hər şeyə gücün çatar. Mən «xoşbəxtlər ölkəsi»nin olduğuna inanıram. Bu, insanın ucaldığı - ucala biləcəyi sağlam, mənəvi düşüncə imkanıdır. İnsan! Özünlə aparma yalanı, özündə saxlama həsədi, tamah həzlərinin son nəticədə hissəvi ölümlərə yol açan iztirablar olduğunu gərək biləsən. Qorxuram, Səni rəzilə çevirən o təhlükəli virusları özünlə aparıb torpağa qarışdırma, bir gün torpağından bitə bilər. Neçə ki, sağsan, ölməmisən, onları öldür, öldür ki, özün sevinəsən. İnsan, aç yaxanı - duyğularının qapısından kilidi götür, qoy varlığına sözün saf, sağlam nəfəsi yol tapa bilsin. Bu, sözdən çox sənə gərəkdir. İnsan, müdrikləri öyrən, ağıllı çağdaşları eşit, sözü tapınaq bil və ona inan! Bir daha deyirəm: Mən sənin üçün yazıram, İnsan!...*”. Onu da deyim ki, Əli Rza Xələflinin 65 illik yubileyində “Tənqidçinin azərbaycançılıq idealı” kitabını Azərbaycan Yazıçılar Birliyi Natəvan klubunda dinləyicilərə Nizami Cəfərov təqdim etdi və sözünün sonunda qeyd etdi ki, bu kitabda Azərbaycan xalqının milli dəyərləri kifayət qədər əhatəli və cazibəli bir üslub və dillə əks etdirilib. Akademik sözünün sonunda “İnsan” essesini hərfi-hərfinə əzbər dedi. Həmin anlarda mən düzgün seçilmiş poliqrafik tərtibatın nə dəmək olduğuna bir daha inandım. Həm də ona inandım ki, müəllifin qeyd etdiyi kimi, yazılanlar insanlar üçündür. İnsanlığın həyatını zənginləşdirmək üçündür. Onun həyat yoluna işıq tutmaq üçündür.

Bütün hallarda düşüncə müstəvisi üçün ruhumuza təsir göstərən, mənəviyyatımızda yaşarılıq hissi yaradan əsərlər bir müəllifin deyil, xalqın sərvətidir.

Təyyar Salamoğlu kimi görkəmli alimin həyat və yaradıcılığının müəyyən müstəvidə təqdim etmək və həm də bu təqdimatda nail olmaq əslində elə xalqın dəyərlərini qorumaq yolunda mübarizənin görünən tərəfidir.

28.03.2023